

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 89 (20.990)

13 may 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasına rəsmi səfərə gələn Fransa Respublikasının Prezidenti Fransua Ollandın mayın 12-də rəsmi qarşılanma mərasimi olmuşdur.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Fransa Prezidenti Fransua Ollandın ölkəmizə rəsmi səfərinin ikitərəfli münasibətlərin genişləndirilməsi baxımından önəmi vurğulandı. Əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.

Görüşdə ikitərəfli, beynəlxalq və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

Mayın 12-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Fransa sənədlərinin imzalanması mərasimi olmuşdur.

Mayın 12-də sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın mətbuat konfransı olmuşdur. Dövlət başçıları mətbuata bəyanatlarla çıxış etmişlər.

Mayın 12-də Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan-Fransa Biznes Forumu keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Fransa Respublikasının Prezidenti Fransua Olland biznes-forumda iştirak etmişlər.

Dövlət başçıları forumda çıxış etdilər.

## Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğunda ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü qeyd olunmuşdur

*Azərbaycanın İran İslam Respublikasının Təbriz şəhərindəki Baş Konsulluğunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə rəsmi qəbul keçirilmişdir.*

Rəsmi qəbulda çıxış edən Azərbaycanın Təbrizdəki Baş konsulu Əli Əlizadə ümummilli lider Heydər Əliyevin zəngin həyat və fəaliyyəti, Azərbaycan xalqı qarşısında tarixi xidmətləri barədə ətraflı məlumat vermişdir. Qeyd olunmuşdur ki, ulu öndərin gərgin siyasi fəaliyyəti nəticəsində dövlət müstəqilliyimiz qorunub saxlanılmış, haqq səsimiz dünya ictimaiyyətinə çatdırılmış, Azərbaycan sürətli sosial-iqtisadi inkişaf yoluna qədəm qoymuşdur. Heydər Əliyev siyasi xəttinin bu gün uğurla davam etdirilməsi Azərbaycanı dünyada söz sahibi olan dövlətə çevirmişdir.



Dahi şəxsiyyətin müəyyənləşdirdiyi xarici siyasət xəttinin Azərbaycanı dost və tərəfdaş ölkəyə çevirdiyini bildirən Baş konsul demişdir ki, ümummilli liderin əsasını qoyduğu Azərbaycan-İran əlaqələri bu gün yüksələn xətlə inkişaf edir. Ulu öndərin anadan olmasının 91-ci ildönümünün dost və qonşu ölkə olan İranda, o cümlədən Təbriz şəhərində böyük təntənə ilə qeyd olunması əlaqələrin inkişafının daha bir göstəricisidir.

Çıxışdan sonra tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevə həsr olunmuş filmə baxmış, ulu öndərin həyat və fəaliyyətindən bəhs edən foto və kitablardan ibarət sərgi ilə tanış olmuşlar. Dahi şəxsiyyətin çoxşaxəli siyasi fəaliyyətini əks etdirən kitab, jurnal və bukletlər tədbir iştirakçılarına paylanmışdır.

Sonda Azərbaycan xalq mahnıları səsləndirilmiş, milli yeməklər və şirniyyatlardan ibarət süfrə açılmışdır.

Mərasimdə İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətinin dövlət rəsmiləri, Türkiyə Respublikasının Təbrizdəki Baş Konsulluğunun əməkdaşları və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

**“Şərq qapısı”**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun dəstəyi ilə daha iki layihə həyata keçiriləcək

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatı Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş “Unipsixoloji forum” və “Gənclərin aktivliyinə dəstək” layihələrini həyata keçirəcək. Bu barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondundan məlumat verilib. 19-25 may tarixlərində həyata keçiriləcək layihələr çərçivəsində nəzərdə tutulmuş təlimlər tələbə-gənclərin psixoloji sahələrdə maariflənməsi, gənclərin karyera seçiminin və hazırlığının düzgün aparılması, cəmiyyətdə özlərinə yer tapmaları məsələsinin və bu prosesdə qarşılaşa biləcəkləri psixoloji problemlərin həlli yollarının öyrədilməsi məqsədini daşıyır.

Sosial şəbəkələrdən düzgün istifadə edilməsi, Azərbaycan və Naxçıvan həqiqətlərinin sosial şəbəkələrdə işıqlandırılması və təbliği isə “Gənclərin aktivliyinə dəstək” layihəsinin əsas məqsədlərindən biridir. Təlimlərdə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri iştirak edəcəklər. Layihə çərçivəsində Bakı şəhərindən dəvət olunmuş mütəxəssis Qail Qasımov müxtəlif mövzularda seminarlar keçəcək. Naxçıvan Gənclər Mərkəzində təşkil olunacaq seminarlarda, ümumilikdə, 100 gəncin iştirakı nəzərdə tutulmuşdur.

## “Naxçıvanqala”da açıq dərs

“Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində Naxçıvan şəhərindəki 15 nömrəli tam orta məktəbin şagirdlərinin iştirakı ilə açıq dərs keçilmişdir. “Muxtariyyət ili” ilə əlaqədar keçilən açıq dərsdə məktəbin tarix müəllimi Süsən Cabbarova ümummilli liderimiz Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü haqda danışaraq bildirmişdir ki, ulu öndər Heydər Əliyev müstəqillik dövründə Azərbaycan xalqına ilk böyük xidmətini məhz Naxçıvanı qorumaqla göstərmişdir. 1990-cı ilin iyul ayında – Naxçıvanın çətin günlərində xalqımızın böyük oğlu Heydər Əliyevin muxtar respublikaya gəlişi bu qədim torpağı xilas etmişdir. 1990-cı il noyabrın 17-də muxtar respublika Ali Məclisinin birinci sessiyası keçirilmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin sessiyanın tariximizdə mühüm əhəmiyyət kəsb etməsi Azərbaycan dövlətçiliyinin dirçəlişi prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlərin müzakirə olunması, Azərbaycanın müstəqil, demokratik və dünyəvi dövlət kimi fəaliyyət göstərməsi üçün mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarların qəbul edilməsi ilə bağlıdır.

Bildirilmişdir ki, görkəmli dövlət xadimi Heydər Əliyev 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışarkən blokada şəraitində olan Naxçıvanı erməni hücumlarından, işğaldan qorumuş, muxtar respublikada sosial-iqtisadi və mədəni quruculuq sahəsində geniş, çoxşaxəli tədbirlər həyata keçirmişdir. Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycan rəhbərliyinə qayıtdıqdan sonra muxtar respublika yeni yüksəliş yoluna qədəm qoymuşdur. Blokadanın çətinliklərinə baxmayaraq, son 18 ildə muxtar respublikada böyük quruculuq proqramı gerçəkləşdirilmiş, bütün sahələrdə mühüm nailiyyətlər əldə olunmuşdur. Bu gün Naxçıvan özünün əsl intibah dövrünü yaşayır.

Sonra şagirdlər komplekslə yaxından tanış olmuşlar.

## Yeni quruculuq ünvanları

***“Muxtariyyət ili”ndə Ordubad rayonunda tikinti-quruculuq işlərinin həcmi bir qədər də artıb. Hazırda rayonun bir neçə yaşayış məntəqəsi tikinti meydançasını xatırladır. Bu ünvanlardan biri də Aşağı Əylis kəndidir. Hazırda bu yaşayış məntəqəsində kənd mərkəzi və kənd tam orta məktəbi üçün binalar inşa olunur.***

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsinin rəisi Əkrəm Salmanovdan aldığımız məlumata görə, 2 mərtəbədən ibarət olacaq kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana və mədəniyyət evi fəaliyyət göstərəcək. Obyektin birinci mərtəbəsində inşaat işləri başa çatmaq üzrədir.

Kənd tam orta məktəbinin binası zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olacaq. Hazırda ikinci mərtəbəsində tikinti işləri aparılan 256 şagird yerlik nəzərdə tutulmuş binada işıqlı sinif otaqları, fənn kabinələri, laboratoriyalar, idman qurğuları müəllim və şagirdlərin ixtiyarına veriləcək.

Obyektlərin tikintisində yerli inşaat materiallarından istifadəyə üstünlük verilir, keyfiyyət amili diqqətdə saxlanılır.

* * *

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət idman və gənclər siyasəti muxtar respublikamızda uğurla davam etdirilir. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, müxtəlif idman infrastrukturlarının yaradılması təkcə paytaxt Naxçıvan şəhərini deyil, bölgələrimizi də əhatə edir. Muxtar respublikamızın ən gənc rayonlarından olan Kəngərli rayonunda Uşaq-Gənclər Şahmat Məktəbi üçün yeni binanın tikilməsi də görülən işlərin davamıdır.

İş icraçısı Hicran Əliyevin verdiyi məlumata görə, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binanın tikintisinə 2013-cü ilin noyabr ayından başlanılıb. Binanın dam örtüyü vurulub, hazırda daxildə suvaq işləri aparılır, fasad hissə isə üzlənir. Bina istifadəyə tam hazır olduqdan sonra zirzəmi hissədə qazanxana, bufet və sinif otaqları, ikinci mərtəbədə 4 sinif otağı, üçüncü mərtəbədə sinif otaqları ilə yanaşı, müəllimlər və kompüter otaqları yerləşəcək. Sonuncu mərtəbə isə oyun zalı və hakim otağı üçün nəzərdə tutulub.

Rayonda digər yeni quruculuq ünvanı rayon Təhsil və Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Kəngərli Rayon şöbələri üçün tikilən inzibati binadır. İnşasına cari ilin aprel ayından başlanılan bina zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olacaq. Hazırda obyektdə beton-qəlib işləri aparılır.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kəngərli Rayon İdarəsi tərəfindən tikintisi davam etdirilən obyektlərdə, əsasən, yerli tikinti materiallarından istifadə edilir, təhlükəsizlik qaydalarına ciddi əməl olunur.

**Xəbərlər şöbəsi**

# Ulu öndər Heydər Əliyevin adını daşıyan məktəbdə təhsil almaq hər bir Azərbaycan gənci üçün qürur mənbəyidir



*Gənc nəslin dolğun təlim-tərbiyəsi həmişə bütün cəmiyyətləri düşündürən məsələlərdən olub. İnkişafın yaratdığı tələbləri ödəyə biləcək hərtərəfli insan resursları potensialının yaradılması isə məhz ilk təhsil illərindən başlanır. Hələ lap birinci gündən uşaqlara təlqin edilməyə başlanılan, sonrakı illərdə yaddaşlara hopdurulan Vətənə məhəbbət, əməksevərlik və halal zəhmətlə ucalmaq hissləri daha sonrakı illərdə onların həyatına işıq tutaraq inamını sonsuza qədər artırır, onları xalqına, dövlətinə layiq vətəndaşlara çevirir. Bu çətin vəzifəni yerinə yetirmək, bütün həyatını xalqına xidmətə həsr etmiş ulu öndər Heydər Əliyevin ideyalarına sədaqətli vətəndaşlar, müstəqil Azərbaycanın gələcək qurucularını yetişdirmək təhsilimizin qarşısında duran ali məqsəddir. Dahi rəhbərin adını daşıyan məktəbdə təhsil alıb buradan məzun olmaq isə hər bir Azərbaycan gənci üçün qürur mənbəyidir.*

Azərbaycan xalqının gələcəyi möhkəm əllərdə olmalıdır. Ümummilli liderin xalqına ən böyük əmanəti olan müstəqil Azərbaycanın keşiyində duran hər bir azərbaycanlı indi bu həqiqəti çox yaxşı başa düşür. Ölkəmiz müstəqillik yollarında irəlilədikcə güclənməyə başladı, bu əmanət daha da müqəddəsləşir, azadlıqda yaşamağın dəyəri daha da artır. Hər birimiz yaxşı bilirik ki, hələ on illər öncəsindən doğma Vətəninin gələcəyini düşünən ulu öndər öz misilsiz xidmətləri ilə mürəkkəb şəraitlərdə hansı çətin işləri reallığa çevirmişdir. Bəli, zaman öz axarı ilə sürətlə irəlilədikcə Azərbaycanda Heydər Əliyev yolu daha aydın, daha geniş görünməkdədir. Çünki bu yol bizim hamımızın dövlətçiliyə xidmət yolu, müstəqillik yolumuzdur.

Müstəqilliyimiz milli sərvətimizdir. Müstəqilliyi qorumaq isə onu qazanmaqdan daha çətindir. Bu sərvəti daimi yaşada bilmək üçün təhsilin üzərinə hansı vəzifələrin düşdüyü indi daha aydın görünür. Çünki məhz ən ali prinsiplər üzərində qurulmuş sağlam təhsillə biz öz gələcəyimizi yetişkin vətəndaşlarımıza əmanət edə bilərik. Əgər bu gün ürəyində Azərbaycançılıq, torpaq-yurd sevgisi gəzdirən, zəkasıyla dünya elminin ən yeni nailiyyətlərini qavraya bilən, yaddaşında bu torpağın tarixini yaşadan, dilində “Ata yurdu”, “Ana Vətən” söyləyən saf, sağlam gənclər yetişdiririksə, onda müstəqil dövlətimizin gələcəyi parlaq olacaqdır. Təkcə Naxçıvan Muxtar Respublikasının deyil, ölkəmizin təhsil sistemində öz qabaqcıl yerini tutan Heydər Əliyev adına tam orta məktəb də yaradıldığı ilk gündən keçən 10 il ərzində ulu öndərin adına layiq fəaliyyəti ilə bu məqsədlərə xidmət etməkdədir.

Təhsildə əldə olunmuş nəticələrə yenidən baxmaq, onları ümumiləşdirmək baxımından on il çox uzun dövr olmaya bilər. Ancaq ayrıca bir məktəbin fəaliyyəti üçün bu zaman kəsiyi içərisində sevindirici məqamlar köks qabardır. 2004-cü ildə Heydər Əliyev adına tam orta məktəbin açılış mərasimində iştirak edən ölkə başçısı cənab İlham Əliyevin söylədiyi bu sözlər hələ də yaddaşlardan silinməyib: ***“Bu məktəb çox yüksək səviyyədə tikilmiş və ən müasir dünya standartlarına cavab verir. Bu həm memarlıq baxımından gözəl binadır, eyni zamanda burada yüksək səviyyədə təhsil almaq üçün hər cür şərait vardır. Bu məktəbin tikintisinə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanmışdır. Heydər Əliyev bu məktəbin tikintisinə çox böyük diqqətlə yanaşırdı, istəyirdi ki, bu təhsil ocağı Azərbaycanda bir nömrəli məktəb olsun. O, bu məktəbin dünya standartlarına cavab verməsini istəyirdi. Bu gün biz hamımız şadıq ki, məktəb Heydər Əliyevin istədiyi kimi tikilmiş və istifadəyə verilmişdir”.***

O dövrdən keçən müddət ərzində ölkəmizin uğurları artıb iqtisadi qüdrəti yüksəldikcə təhsil sahəsində də əldə olunan nailiyyətlər çoxalmaqdadır. İndi ölkəmizin inkişafı naminə hər sahə üzrə kadrlar hazırlanması üçün çox ciddi addımlar atılır. Bu isə təhsilimiz qarşısında mühüm vəzifələr qoyur. Təhsildə elə bir gələcəyin əsası qoyulur ki, həmin gələcək bütün cəmiyyətin özünü yaşada bilməsi üçün hava-su qədər vacibdir. Bu gün Heydər Əliyev adına tam orta məktəbdə təhsil alan 1000-dən çox şagirdə də məhz gələcəyin belə gəncləri kimi yanaşılır. Buradakı şagirdlərin belə ruhda yetişdirilmələri üçünsə hər cür şərait yaradılmışdır: geniş, gözəl bina, müasir sinif otaqları, lazım olan kompüter dəstləri və bütün texniki avadanlıqlar. Yaradılmış şəraitdən istifadə edən 108 nəfər müəllimin əməyinə həmişə diqqətlə yanaşılır. Müəllimlərdən 4 nəfərinin “Əməkdar müəllim” fəxri adına, 4 nəfərinin “Tərəqqi” medalına layiq görülməsi, bir nəfərinin ilin müəllimi seçilməsi bütün pedaqoji kollektivin fəaliyyətinə verilən yüksək qiymətin göstəricilərindəndir. Heydər Əliyev adına tam orta məktəbin müəllimlərinə göstərilən belə qayğı, eyni zamanda hər kəsdə işinə yaradıcı münasibət formalaşdırır, yüksək məsuliyyət yaradır. Buna görə də təkcə Naxçıvan Muxtar Respublikasının deyil, ölkəmizin qabaqcıl məktəbləri sırasında adıçəkilən məktəbdə hər ilin uğurlu nəticələri burada çalışan bütün müəllimlərin əməyinin məhsuludur. Belə ki, ötən 2013-cü il və bu il üst-üstə məktəbin 8 nəfər şagirdi ölkə üzrə fənn olimpiadalarının qalibi olmuşdur. Ali məktəblərə qəbul göstəricilərində də Heydər Əliyev adına tam orta məktəb öz birinciliyini qoruyub saxlamaqdadır. Ötən illərdə məktəbin məzunlarının müvəffəqiyyət göstəriciləri ürəkaçandır. Təkcə 2013-cü ildə ali məktəblərə qəbul göstəricisi 95 faizdən yüksək olmuş, 45 nəfər məzundan 43-ü ölkəmizin müxtəlif ali məktəblərinə daxil olmuşdur. Onlardan 10 nəfərinin 500 baldan yuxarı, üç nəfərinin 600 baldan yuxarı nəticə göstərməsi, bir nəfərinin 687 balla Prezident təqaüdünə layiq görülməsi fərəhləndirici hal kimi çəkilən əməyin heç zaman hədər getmədiyini bir daha sübut edir. Bu fakt Naxçıvanda təhsilə göstərilən qayğının bir nümunəsidir. Bütün bunlar isə muxtar respublika rəhbərinin təhsilə, Heydər Əliyev adına tam orta məktəbə göstərdiyi diqqət sayəsində mümkün olmuşdur. Bütün bunların nəticəsidir ki, artıq 3 ildir, Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının statistik məlumatlarında Heydər Əliyev adına tam orta məktəb ölkəmizin ən yaxşı məktəbləri sırasında öz layiqli yerini qorumaqdadır.

Heydər Əliyev adına tam orta məktəb təhsil sahəsindəki nailiyyətləri ilə muxtar respublikanın ümumtəhsil məktəblərinə nümunədir. Məktəb müəllimlərinin tədris təcrübəsi muxtar respublikanın digər məktəbləri ilə bölüşülməkdədir. Ulu öndərin irsinin öyrənilməsi, onun ideallarının təbliğ olunmasında məktəbin müəllimləri fəallıq nümayiş etdirirlər. Heydər Əliyev adına tam orta məktəbin nailiyyətləri bunlarla bitmir. Məktəbin şagirdlərinin idmandakı göstəriciləri də uğurludur. İki nəfər şagirdin müxtəlif səviyyələrdə keçirilən boks yarışlarında yüksək nəticələr qazanması çox sevindiricidir.

*Təhsil, gənc nəslin təlim-tərbiyəsi daim yeni axtarışlar sorağında olmağı, gərgin zəhmət çəkməyi tələb edən bir sahədir. Dünya inkişaf etdikcə ölkəmizin də bu inkişafda öz yerini tuta bilməsi üçün təhsilin daşıdığı yükün əhəmiyyəti hər keçən gün daha açıq görünür. Mükəmməl təhsil alaraq hərtərəfli savada və dünyagörüşə sahib olan gənclərimiz isə bu yükü daşıyan fədakar müəllimlərinin ən qiymətli mükafatı olacaqdır – bu gün Heydər Əliyev adına tam orta məktəbdən müstəqil həyata vəsiqə alan hər bir gənc kimi.*

✍ **Əli CABBAROV**

## Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunan “Naxçıvan Open-2014” Beynəlxalq Şahmat Festivalı başa çatıb





*Dünən Naxçıvan şəhərindəki Şahmat Mərkəzində ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunan “Naxçıvan Open-2014” Beynəlxalq Şahmat Festivalının doqquzuncu turunun oyunları keçirilib.*

IX turdan sonra “C” qrupunda bakılı zəka ustası Kamran Rzazadə birinci, İran şahmatçısı Mani Cahedi ikinci, Naxçıvan şahmatçısı Siyavuş Bağırov üçüncü olublar. “B” qrupunda isə birinci pillədə Bakı Şahmat Məktəbinin yetirməsi Təbriz İdrisov yer alıb. Bu qrupda İsmayıllı şahmatçısı Ramil Cavadov ikinci, Qax rayonundan yarışlara qatılan Pərvanə İsmayılova isə üçüncü yerləri təmin ediblər.

Yüksək reytinqli şahmatçıların yarışdığı “A” qrupunda Rusiya şahmatçısı Boris Savçenko festivalın qalibi adına layiq görülüb. İkinci yerə Azərbaycan şahmatçısı Eltaç Səfərli, üçüncü yerə Boris Savçenkonun həmyerlisi Aleksandr Simonov çıxıblar.

Festivalın qaliblərinin mükafatlandırma mərasimində çıxış edən yarışın baş hakimi Faiq Həsənov qalibləri təbrik edib, turnirin yüksək səviyyədə keçirilməsi üçün yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra festivalın qalibləri mükafatlandırılıblar. Festivalda qruplar üzrə ilk üç yeri tutan idmançılara, eləcə də müxtəlif nominasiyalar üzrə fərqlənən şahmatçılara kuboklar, pul mükafatları, qiymətli hədiyyələr təqdim edilib.

Festivalın qalibi, qrossmeyster Boris Savçenko yarışın təşkilatçılarına minnətdarlıq edib, Naxçıvanda keçirilən Beynəlxalq Şahmat Festivalını dünya miqyasında keçirilən mötəbər yarışlardan biri kimi dəyərləndirib.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Vüqar Səfərov yarışda qələbə qazanan şahmatçıları təbrik edib, onlara uğurlar arzulayıb.

Bununla da, ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş “Naxçıvan Open-2014” Beynəlxalq Şahmat Festivalına yekun vurulub.

✍ **Səbuhi HÜSEYNOV**

*May ayının 11-i 2014/2015-ci tədris ili üçün ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olunmaq istəyən əvvəlki illərin məzunlarının II və III ixtisas qrupları üzrə qəbul imtahanı keçirilib. Muxtar respublikada Naxçıvan şəhər 7 və 14 nömrəli tam orta məktəblərdə keçirilən imtahanlarda 896 abituriyent iştirak edib. İmtahana 87 nəzarətçi-müəllim, 9 imtahan rəhbəri cəlb olunub.*

## II və III ixtisas qrupları üzrə qəbul imtahanı keçirilib

İmtahan başlanmazdan əvvəl imtahan keçiriləcək məktəblərin önündə həyəcanlı görünən abituriyentlər, onların valideynləri ilə görüşüb həmsöhbət olduq. Şərur rayon Danyeri kənd tam orta məktəbinin məzunu olmuş Gülsadə Məmmədova dedi:

– Ötən il qəbul imtahanında iştirak etdim. 400-ə yaxın bal topladım. Topladığım bal bir çox ixtisaslara uyğun gəlirdi. Ancaq mənim arzum jurnalist olmaqdır. Buna görə də istəmədiyim ixtisasda təhsil almaq istəmədim. Bu il yenidən hazırlaşdım. İnanıram ki, öz arzuma çatacağam.

Həmin gün valideynlər abituriyentlərdən daha həyəcanlı idilər. Babək rayonunun Nehrəm kəndindən olan İsmayıl Sadiqov deyir:

– Oğlum bu gün imtahan verir. Ona mənəvi dəstək olmağa gəlmişik. Çox həyəcanlıyıq. Ona inanırıq. Övladlarına dəstək olmaq üçün burada gözləyənlərə nümunəvi iaşə xidmətinin yaradılmasından çox razıyam və bu şəraiti yaradanlara minnətdarlığımı bildirirəm.

İmtahan başa çatdıqdan sonra imtahanların gedişinə nəzarət edən müəllim Məlahət Seyidova bildirdi ki, abituriyentlərin öz bilik və bacarıqlarını göstərmək üçün ayrılan 3 saat ərzində imtahan otağında onların yüksək fəallığını müşahidə edib. Belə ki, həmin müddət ərzində abituriyentlər heç bir qayda pozuntusuna yol verməyərək diqqətlərini ancaq test tapşırıqlarına yönəldiblər. Bir sözlə, imtahan əsl bilik sınağı ab-havasında keçib.

İmtahandan yenicə çıxmış Kəngərli rayonunun Xok kəndindən olan Mədinə Abdullayeva dedi ki, imtahan zalına daxil olanda bir az həyəcanlı olsam da, özümə tam əmin idim. Sualları cavablandırmağım da bir o qədər çətin olmadı. Suallara doğru cavab verdiyimə əminəm. Tələbə adını qazanmaq ən böyük arzumdur. İnanıram ki, bu adı qazanacağam. Yalnız bununla bizim üçün yaxşı təhsil şəraiti yaradan dövlətimizə, biz gənclərin savadlı olması üçün zəhmət çəkən müəllimlərimizin əməyinə layiqli cavab verə bilərik. Daha bir abituriyent Aynur Kərimova bildirdi ki, imtahanda əsas amil olan sakitlik tam təmin edilmişdi. Bu da onun sualları dəqiq cavablandırmasına imkan verib.

Qeyd edək ki, imtahanda təqdim olunmuş sualların düzgün cavabları TQDK-nın internet saytında yerləşdirilib.

✍ **Sara ƏZİMOVA**

## Aztəminatlı ailələr diqqət mərkəzindədir

***Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası müxtəlif ölkələrin ictimaiyyətinin diqqətini ailələrin çoxsaylı problemlərinin həllinə yönəltmək məqsədilə 1993-cü ildə 15 mayın “Beynəlxalq Ailə Günü” kimi qeyd olunması barədə qərar qəbul etmişdir. Həmin tarixdən etibarən hər il may ayının 15-i “Beynəlxalq Ailə Günü” kimi qeyd olunur.***

Muxtar respublikada aparılan uğurlu sosial siyasətin əsas məqsədlərindən biri də ailələrin rifah halını yaxşılaşdırmaqdır. Bunun üçün yeni iş yerləri açılmış, iqtisadi islahatlardan əldə edilən gəlirlər hesabına sosial proqramlar genişləndirilmiş, nəticə etibarilə, əhalinin sosial müdafiəsi daha da gücləndirilmişdir.

15 may – Beynəlxalq Ailə Günü ərəfəsində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə təşkilatçılığı ilə Ordubad rayonunun Üstüpü kəndində yaşayan çoxuşaqlı aztəminatlı Ələkbər Məmmədovun ailəsi ilə görüşün keçirilməsi ailənin sosial müdafiəsini gücləndirmək məqsədi daşıyırdı. Adıçəkilən qurumların əməkdaşları çoxuşaqlı ailənin yaşayış vəziyyəti ilə maraqlanmış, ailə üzvləri tibbi müayinədən keçirilərək onlara dərman preparatları və ərzaq payı verilmişdir.

Xüsusi qayğıya ehtiyacı olan ailənin üzvləri diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***



# İqtisadiyyat

*Təxminən, on il bundan əvvəl Azərbaycan iqtisadiyyatının gələcəyi haqqında proqnozlaşdırılan fikirləri xatırlayası olsaq, çoxları dünyanın bir çox aparıcı mətbu orqanlarında geniş yer verilən "Holland sindromu" kimi "xəstəliyin" ölkəmizdən də yan keçməyəcəyini düşünür və yaxın gələcəkdə bunun acı nəticələri ilə üz-üzə qalacağımızı ehtimal edirdilər. Təbii ki, o zaman söylənilən bu ehtimallar elə ehtimal kimi də tarixin arxivində qaldı. Ancaq burada əsas məqam ondan ibarət idi ki, qərbli ekspertlərin əksəriyyəti ölkəmizin inkişafının yalnız neft və qazdan asılılığı yoluna üstünlük verir, Azərbaycanın qlobal inkişafına inanmır və ya bu istiqamətdə müsbət proqnozlar verməyə xəsislik edirdilər.*

## Sənaye iqtisadiyyatın əsas lokomotividir



Azərbaycanın ən yaxın onillik tarixi bir daha sübut etdi ki, ölkəmiz bütün sahələrdə inkişaf edir və bu inkişafın əsasında da neft amili yox, insan amili dayanır. Elə ölkə başçısı da təbii ehtiyatların nə zamansa tükənəcəyini, buna görə də buradan əldə edilən vəsaitlərin digər sahələrə yönəldilməsinin zəruriliyini dəfələrlə qeyd etmişdir. Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyəti dövründə cənab İlham Əliyevin imzaladığı çoxsaylı dövlət proqramlarının əsas məqsədi də ölkəmizin gələcək inkişafı üçün mükəmməl və hərtərəfli infrastruktur bazasının yaradılmasından ibarətdir. Ötən müddətdə görülən işlərin həcmi bir daha seçilən yolun düzgün, aparılan siyasətin müstəqil və qətiyyətli olduğunu sübuta yetirmişdir.

2014-cü il Azərbaycanda "Sənaye ili" elan olunmuşdur. Əvvəlki yazılarımızda da qeyd etdiyimiz kimi, ölkə başçısının bu qərarı iqtisadiyyatda sənayenin inkişaf etdirilməsinin vacibliyini göstərir. Bu gün dünyanın ən inkişaf etmiş ölkələrinin əsas gəliri kiçik və böyükhəcmli sənaye müəssisələrinin payına düşür. Yəni insanın ən kiçik məişət tələbatlarından tutmuş böyükhəcmli ehtiyaclarına qədər istifadə edəcəyi bütün məhsulların istehsalı istənilən ölkənin, necə deyərlər, sənaye arzusudur. Məgər son illər sürətli sosial-iqtisadi inkişaf nəticəsində dövlət büdcələrini xeyli artıran Çin, ABŞ, Almaniya, eyni zamanda qardaş Türkiyə Respublikasının əldə etdiyi uğurların kökündə sənayenin inkişafı dayanmırmı? Yəni demək istədiyimiz odur ki, "Sənaye ili" iqtisadiyyatın bu sahəsinə daha qlobal yanaşmağı zəruri edir. Cari ilin ötən dövrü ərzində muxtar respublikada bu sahədə atılan addımlar yaxın gələcəyə daha nikbin baxmağa imkan verir. Ancaq gəlin əvvəlcə muxtar respublikamızın sənaye mənzərəsinə ötən ilin simasında baxaq. Vurğulamaq lazımdır ki, 2013-cü ildə muxtar respublikada sənaye 29 faizlik payla Ümumi Daxili Məhsulun tərkibində ilk yerə sahib olmuş, istehsalın həcmi 2012-ci illə müqayisədə artaraq 863 milyon manata çatmışdır. Bunun da 799 milyon manatdan çoxu özəl bölmənin payına düşür. Son illərdə muxtar respublikamızda yeni sənaye müəssisələrinin yaradılmasında müasir texnologiyaların tətbiqi daxili tələbatı yüksəkkeyfiyyətli məhsullarla ödəməklə yanaşı, onların ixrac potensialını da artırmışdır. Bunun nəticəsidir ki, ötən il 241 milyon manatlıq sənaye məhsulu ixrac edilmişdir. Yeri düşmüşkən qeyd edilməlidir ki, səmərəli kredit mexanizmlərinin formalaşdırılması yerli istehsal və xidmət müəssisələrinin yaradılmasında başlıca amillərdən biridir. Ötən il muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən 42 milyon 800 min manata yaxın kreditləşmə həyata keçirilmiş, bu kreditlərin 17 milyon 305 min manatı, yaxud 40 faizi sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərə verilmişdir. Sahibkarlıq subyektlərinə göstərilən maliyyə dəstəyinin 11 milyon 345 min manatı özəl bölmədə yeni istehsal sahələrinin yaradılmasına yönəldilmişdir.

İndi isə cari ilin ilk rübündə muxtar respublikada sənayenin inkişaf mənzərəsini nəzərdən keçirək. İlin ilk rübündən bəhs edərkən qeyd etməliyik ki, son illərdə muxtar respublikada rəqabətqabiliyyətli müasir sənaye müəssisələri yaradılmaqla sənaye sahəsi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Cari ilin yanvar, fevral və mart aylarında muxtar respublikada 215 milyon 779 min manat həcmində sənaye məhsulu istehsal olunmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,6 faiz çoxdur. Sənaye məhsulu istehsalının 95,8 faizi malların, 4,2 faizi isə xidmətlərin payına düşmüşdür. Sənayenin dövlət sektorunda 15 milyon 300 min manatlıq, qeyri-dövlət sektorunda isə 200 milyon 479 min manatlıq məhsul istehsal olunmuşdur.

Əgər muxtar respublikada sənaye məhsulu istehsalının dinamikasına nəzər salsaq, görərik ki, bu, 2011-ci ilin yanvar-mart ayları üzrə 152 milyon 890 min manat, 2012-ci ilin həmin dövrü üzrə 181 milyon 350 min manat, 2013-cü ildə 207 milyon 184 min manat, cari ilin ilk rübündə isə 215 milyon 779 min manat olmuşdur.

Qeyd etdiyimiz kimi, cari ilin ölkəmizdə "Sənaye ili" elan olunması muxtar respublikamızda sənayeləşmənin yeni inkişaf mərhələsinə qədəm qoymasına şərait yaratmışdır. 2014-cü ilin yanvar-mart aylarında muxtar respublikada dövlət dəstəyi ilə 12 layihə üzrə istehsal və xidmət obyektləri fəaliyyətə başlamış, 37 layihə üzrə istehsal və xidmət obyektlərinin qurulması isə davam etdirilir. Təbii ki, sənayedə istehsalın genişlənməsi ixrac potensialının da artmasına müsbət təsir göstərmiş və ilin ilk rübündə daxili tələbatdan artıq istehsal olunmuş 39 milyon 440 min Amerika Birləşmiş Ştatları dolları dəyərində sənaye məhsulu ixrac edilmişdir.

*Bəli, muxtar respublikamızda fəaliyyət göstərən və yeni qurulacaq istehsal müəssisələrində yerli xammal mənbələrindən düzgün istifadə istehsal zamanı yarana biləcək əlavə xərclərin minimuma endirilməsi ilə yanaşı, həm də keyfiyyətli yerli sənaye məhsullarının əldə edilməsinə şərait yaradır ki, bu da həmin məhsulların ölkəmizdən kənarda tanıdılması baxımından çox əhəmiyyətlidir. İnanırıq ki, təbii sərvətləri ilə məşhur olan Naxçıvan diyarı həm də milli sənaye brendlərinin yaranmasında öz sözünü deyəcək.*

**Səbuhi HƏSƏNOV**

## Bank olmayan kredit təşkilatlarının fəaliyyəti genişləndirilir

Muxtar respublika iqtisadiyyatının çoxşaxəliliyinin təmin olunmasında bank-kredit təşkilatlarının rolu böyükdür. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bank təşkilatları ilə yanaşı, bank olmayan kredit təşkilatları da bu vəzifənin yerinə yetirilməsində fəallıq göstərirlər. Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsindən aldığımız məlumata görə, cari ilin ilk rübündə bank olmayan kredit təşkilatlarının muxtar respublika iqtisadiyyatının kredit qoyuluşlarında xüsusi çəkisi 14,8 faiz olmuşdur. Hazırda muxtar respublikada 8 belə kredit təşkilatı fəaliyyət göstərir. Bunlar arasında "FINCA" BOKT, "Naxçıvan-Kredit" BOKT MMC, "Aqrarkredit" SKT Naxçıvan filialı və digərləri muxtar respublika iqtisadiyyatının müxtəlif sahələrinə kredit qoyuluşlarında xüsusilə fərqlənirlər. Ümumilikdə, bu təşkilatlar tərəfindən cari ilin ilk 3 ayı ərzində 12 milyon 500 min manatdan çox həcmdə kredit qoyuluşları həyata keçirilmişdir.

**Xəbərlər şöbəsi**

## Torpaqlardan təyinatı üzrə səmərəli istifadə məhsuldarlığı artırır



Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının uğurlu icrası muxtar respublikada da kənd təsərrüfatının müxtəlif sahələrinin hərtərəfli inkişafını təmin etmişdir. Bütün bunların nəticəsidir ki, muxtar respublikada əhalinin yaşayış səviyyəsi yüksəlmiş, insanların maddi rifahı yaxşılaşmışdır. Rahat yaşayış və firavan həyat, öz növbəsində, insanların torpağa bağlılığını artırır. İndi daha çox işləyib daha yaxşı qazanc əldə etmək istəyən sakinlərin torpaqla ünsiyyəti yerli məhsulların istehsalını, keyfiyyətini və çeşidini artırmışdır. Muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Şahbuz rayonunda da kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafı üçün yaradılan şəraitdən yüksək səviyyədə istifadə olunması fərdi sahibkarlıq sahələrinin yaradılmasına, bunun da nəticəsində istehsalın ilbəil artmasına səbəb olmuşdur.

Şahbuz rayonu dağlıq rayon olduğuna görə burada yaşayan əhali, əsasən, kənd təsərrüfatı ilə məşğul olur. Maldarlıq, heyvandarlıq, əkinçilik, bağçılıq və arıçılıq rayonda xeyli inkişaf etmişdir. Aqrar sahənin inkişafı üçün Şahbuz rayonunda geniş imkanlar var.

Şahbuz rayonunun ümumi ərazisi 83 min 658 hektardır. Bunun 23 min 982 hektarı dövlət, 54 min 811 hektarı bələdiyyə, 4865 hektarı isə xüsusi mülkiyyətə daxildir. Bu torpaqlardan səmərəli istifadə edilməsi üçün Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Şahbuz Rayon Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilən tədbirlər əkin dövriyyəsinin xeyli genişlənməsinə səbəb olmuşdur. Bu da rayonda məhsul istehsalının artmasına zəmin yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq, rayon ərazisində torpaqların texniki uçotunun elektron formada aparılmasının, bonitirovkasının (torpağın bonitet balının müəyyənləşdirilməsi), iqtisadi qiymətləndirilməsinin, xəritələşdirilməsinin təmin edilməsinə nail olunmuşdur. Deyə bilərəm ki, bu istiqamətdə zəruri tədbirlərin vaxtında həyata keçirilməsi rayonda bu işlərin tamamilə başa çatdırılmasına səbəb olmuşdur.

Bundan başqa, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na əsasən, Şahbuz rayonunda meliorasiya və irriqasiya tədbirlərinin aparılmasına ehtiyacı olan və istifadə edilməyən əkinəyararlı torpaq sahələrinin müəyyənləşdirilməsi, xəritələşdirilməsi işləri də uğurla icra olunmuşdur. Əsasən Türkeş, Badamlı, Ayrınc, Külüs, Nursu və Şahbuzkənd ərazilərində bu məqsədlə xeyli işlər görülmüş, nəticədə, uzunmüddətli əkilməyən əkinəyararlı torpaq sahələri əkin dövriyyəsinə qatılmışdır.

Şahbuz rayonunun əkinəyararlı torpaqlarının yarısından çoxunda, əsasən, taxıl əkini aparılır. Rayonda suvarılan torpaq sahələri ilə yanaşı, dəmyə şəraitində də taxıl əkini aparılır və yaxşı məhsul əldə olunur.

Taxılçılığın inkişafı eyni zamanda bölgədə heyvandarlığın və quşçuluğun da inkişafına şərait yaradır. Ona görə də heyvandarlıqla məşğul olan sahibkarlar mülkiyyətlərində olan torpaq sahələrində daha çox taxıl əkininə üstünlük verirlər. Çünki heyvandarlığın inkişafında əsas amil olan yem bazasının yaradılması üçün əkin sahələrinin çox olması vacib şərtdir.

Bütün görülən işlərin və həyata keçirilən tədbirlərin nəticəsidir ki, 2013-cü ildə cəmi əkilən sahə 2656 hektar olmuşdur.

Torpaq və iqlim xüsusiyyətləri nəzərə alınmaqla əkin aparılmasında "Əkin atlasları"ndan istifadə edilməsi və məhsuldarlığın yüksəldilməsində intensiv amillərin rolunun artırılması ilə bağlı yerlərdə sahibkarlarla, torpaq mülkiyyətçiləri ilə tez-tez görüşlər keçirilir, maarifləndirici tədbirlərin davamlı olmasına ciddi diqqət yetirilir.

Torpaqların əkilməsində və yüksək məhsuldarlığa nail olunmasında, əlbəttə ki, birinci şərt torpaq mülkiyyətçilərinə olan dövlət qayğısıdır. Belə ki, apardıqları əkinə görə torpaq mülkiyyətçilərinə verilən subsidiyalar onları torpağa daha sıx bağlayır, onların yüksək məhsuldarlıq əldə olunması əzmini artırır. Bundan başqa, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Şahbuz rayon bazasının yaradılması da rayonda aqrar sahənin inkişafında mühüm rol oynamışdır. Bazanın yaradılması torpaq mülkiyyətçilərinə yetişdirdikləri məhsulları vaxtında toplamaq imkanı verir. Bu da məhsul itkisinin qarşısını alır.

Şahbuz rayonunda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 fevral 2012-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" ilə də bağlı mühüm işlər görülür. Belə ki, meyvə və tərəvəz əkinləri üçün iqlim xüsusiyyətləri nəzərə alınmaqla əkin yerlərinin müəyyənləşdirilməsi, xəritələşdirilməsi işləri tamamlanmışdır. Bu məqsədlə Ayrınc, Qızıl Qışlaq, Kükü, Kolanı, Nursu, Ağbulaq, Gömür, Biçənək, Şahbuzkənd, Külüs, Keçili, Badamlı kəndlərində və Şahbuz şəhərində yararlı torpaq sahələrində yeni bağlar salınmış, hektarlarla tərəvəz əkini keçirilmişdir. Həmin ərazilərin xəritələri Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin, Dövlət Yer Quruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutunun mütəxəssisləri tərəfindən elektron formatda hazırlanmışdır. Görülən işlərin nəticəsidir ki, 2014-cü ilə qədər Şahbuz rayonunda 159,5 hektar meyvə bağı salınmış, 65 hektar qoruyucu meşə zolağı əkilmişdir. Cari ildə 12,2 hektar meyvə bağının salınması planlaşdırılmışdır.

Üzümçülüyün inkişaf etdirilməsi üçün Ayrınc və Türkeş kəndlərində geniş imkanlar vardır. Qədim əkinçilik ənənələrini özündə yaşadan kəndlərimizdəki qədim üzüm bağları əvvəllər diqqətdən kənarda qalsa da, hazırda həmin bağların sahələri genişləndirilir, tənəklərə aqrotexniki qaydada qulluq olunur.

*Məqsəd gələcəkdə rayonda üzüm istehsalını artırmaq və yeni salınan bağların becərilərək məhsuldar hala gətirilməsinə nail olmaqdır. Əsas məqsəd isə yalnız və yalnız bolluq yaratmaqla müstəqil dövlətimizin hər bir vətəndaşının yaşayış səviyyəsinin yüksəldilməsinə, ərzaq məhsulları ilə etibarlı təminatına töhfə verməkdir.*

**Təhməz HƏMZƏYEV**
*Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Şahbuz Rayon Şöbəsinin müdiri*

Bu barədə düşünək

# İkiqat qohumluğa ehtiyac varmı?

Qədim adət-ənənələrimizdən biri olan qan qohumlarının nikaha girməsi uzun illər psixologiyamızda özünə dərin kök salıb. Adətən, belə izdivacların təşəbbüskarları valideynlər, həmçinin xalalar, bibilər, dayılar, əmilər olublar və olurlar. Şifahi xalq ədəbiyyatı nümunələrindən olan nağıllarımızda, dastanlarımızda, bayatılarımızda "əmioğlu ilə əmiqızının kəbini göydə mələklər tərəfindən kəsilib" fikrinə rast gəlirik. Keçmiş adətlərimizdən olan ikiqat qohumluğa güclü meylin olması uzun illər, əsasən də, Sovet hakimiyyəti illərində belə nikah aktlarının sayını ilbəil artırıb. Bəlkə də, bilərəkdən bu adət-ənənənin qarşısı alınmayıb. Bu izdivacdan dünyaya gələn əksər uşaqların fiziki sağlamlığında böyük problemlərin olduğu, yəqin ki, elm adamlarına bəlli olub. Amma buna baxmayaraq, bu qohumluq əlaqələrinə bu gün də cəmiyyətimizdə rast gəlinir. Görəsən, ikiqat qohumluğa nə ehtiyac var? Əlbəttə ki, birmənalı şəkildə deyə bilərik ki, bu, sadəcə olaraq, valideynlərin istəyindən doğan bir izdivac olur.

Məlum bir həqiqətdir ki, irsiyyət əlamətləri nəsillərdən nəsillərə ötürülür. Və mütəxəssislər tərəfindən o da sübut olunub ki, ata ilə ananın qanqohumluğunun olmaması nəslin əqli və fiziki sağlamlığında özünü daha çox büruzə verir.

Müasir tibb elmi ikiqat qohumluğu zərərli hal sayır və bunun yolverilməzliyini faktlarla sübut edir. Statistik məlumatlarda göstərilir ki, qan qohumu ilə evlənənlər arasında anadangəlmə əsəb xəstəliyinə tutulan uşaqlar daha çox doğulur.

Bu gün hər birimizə bəllidir ki, dünyada minlərlə irsi xəstəliklər, xüsusilə də müxtəlif qan xəstəlikləri mövcuddur. Elə bu irsiyyət xəstəlikləri nəticəsində fiziki imkanları məhdud uşaqlar doğulur. Bunlardan başqa, daun, audizm kimi müalicəsi, müayinəsi çox böyük vəsait tələb edən xəstəliklər də bu cəhətə diqqət etməyin vacibliyini önə gətirir.

Mütəxəssislərin fikrincə, qohum olmayanlar arasında bağlanmış nikahlardan doğulan uşaqlarda irsi xəstəliklərə 4-5 dəfə az rast gəlinir.

Qanqohumluğu olan valideynlər fərqinə varmadan, müxtəlif səbəblər üzündən gənclik həvəsi ilə atdıqları bu addımın acısını bəzən ömür boyu yaşamağa məhkum olurlar. Çünki ikiqat qohumluqla qurulan belə ailələrdə, mütəxəssislərin fikrincə, anadangəlmə əlil uşaqların dünyaya gəlməsi qaçılmazdır. Ona görə də belə nikahlardan doğulan qüsurlu uşaqlar təkcə ikiqat qohumların, yəni ata və ananın deyil, həm də cəmiyyətimizin yaşadığı böyük bir problemə çevrilib.

Sevindirici haldır ki, bugünkü gənclərimizin əksəriyyəti qohumlararası nikaha köhnəlmiş adət-ənənə kimi baxır, keçmişin zərərli qalığı olan belə nikahlardan imtina edirlər. Amma "dədə-baba adəti ilə gedən" valideynlərin təkidi, tələbi ilə yenə də belə ailələr qurulur. Elə buna görə də hər bir ziyalı və cəmiyyətimizin aparıcı qüvvələri bu istiqamətdə aparılan tədbirlərin fəal iştirakçısı olmalı və maarifləndirməni genişləndirməli, təbliğat işini gücləndirməlidirlər ki, gənclər bu adətin zərərli olduğunu tam mənası ilə anlasınlar və ondan üz çevirsinlər. Çalışmalıyıq, belə zərərli adət-ənənələri yaşatmağa çalışan ahıllarımızın düşüncə tərzini dəyişək ki, onlar kor-koranə öz nəvə-nəticələrini, oğul və qızlarını böyük bəlaya düçar etməsinlər.

Bu gün cəmiyyətin hər bir nümayəndəsinin qarşısında duran vəzifə ikiqat qohumluğun yaranmasına yol verməmək və bu izdivacın qarşısında keçilməz sədd yaratmaqdır.

Xalqımızın uzun illərdən bəri yaşatdığı dəyərlərdən, ulularımızdan bizə miras qalan zəngin adət-ənənələrdən günlərlə danışmaq olar. Onların bu gün də gərəkli olanlarını qoruyub saxladığımız kimi, zərərli olanlarını da aradan qaldırmağa çalışmalıyıq. Tarix boyu, zaman içərisində tədricən bu proses getsə də, günümüzə qədər gəlib çıxan bəzi adət-ənənələrimiz var ki, artıq onlara üz çevirməyin vaxtı çatıb. Ona görə ki, belə adət-ənənələr bir zamanlar insanların savadsızlığı, dünyagörüşünün azlığı ilə yaranmış zərərli cəhətlərinə görə, ümumiyyətlə, qəbuledilməzdir.

Qeyd etmək lazımdır ki, belə adətlər şəhərlərə nisbətən kənd yerlərində, ucqarlarda keçmişin ənənələri kimi daha çox mühafizə edilir. Çünki gözünü açandan bu adətlərlə, ənənələrlə yaşayan yaşlı insanlar dədə-baba "qaydalarına" üz çevirməyi nankorluq sayır və onları öz ailələrində yaşatmaqla sədaqətlərini göstərməyə çalışırlar. Əlbəttə ki, bizim hər birimiz keçmişimizin yaxşı adət-ənənəsini, milli mentalitetimizə aid dəyərləri yüksək qiymətləndirir və onları yaşatmağı vətəndaşlıq borcu sayırıq. Bu istiqamətdə elə dövlətimiz tərəfindən də ciddi tədbirlər həyata keçirilir. 2012-ci ilin muxtar respublikamızda "Milli dəyərlər ili" elan olunması təsadüfi deyildi. Məqsəd xalqımızın əsrlər, qərinələr boyu yaratdığı və kimliyinin təsdiqinə çevirdiyi milli adət-ənənələrin yaşaması və gənc nəslə aşılanması üçün cəmiyyətin səfərbərliyə almaq, hər yerdə gərəkli tədbirlərin həyata keçirilməsinə nail olmaq idi. Sözsüz ki, bu tədbirlər öz nəticəsini verir. Bəllidir ki, bu gün daha çox milli mentalitetimizlə bağlı görülən işlər gənclərin mənəviyyatına, dünyagörüşünə müsbət mənada təsirsiz ötüşmür. Lakin bu da danılmaz bir faktdır ki, yaxşı ilə pis həmişə yanaşı olub. İnsan istədiyi vaxt pisdən yaxa qurtara bilsəydi, onda həyat çox yeknəsəq olardı. Bəlkə, ona görə insanoğlu yarandığı gündən pisə qarşı mübarizədə mətinləşir və yaxşılara sahib olmaq amalı ilə yaşayır. Bu mənada cəmiyyətimizin inkişafına mane olan cəhətlərə qarşı həmişə barışmaz mövqedə dayanmalıyıq.

**Şəhla NƏBİYEVA**

*Dünyanın müxtəlif ölkələrində göbələklərdən istifadə xalqların adət və ənənələri ilə bağlı olmuşdur. Son 30-40 ildə yeməli göbələklərin öyrənilməsi və süni yolla artırılmasına maraq artmışdır. Yeməli göbələklərin tərkibində zülallar, karbohidratlar, yağlarla yanaşı, müxtəlif vitaminlər, mikroelementlər, bioloji aktiv maddələrin olduğu aşkar edilmişdir.*

Mütəxəssis sözü

# Göbələklər haqqında nə bilirik?

Yüz minə yaxın növü olan göbələklərə qızmar tropik ölkələrdən, səhralardan tutmuş uzaq şimal qütbünə qədər hər yerdə rast gəlmək olar. Göbələklər fizioloji funksiyası, xarici görünüşü və ölçüsünə görə müxtəlifdirlər. Ayrı-ayrı göbələk qrupları arasındakı kəskin müxtəlifliyə baxmayaraq, onlarda oxşar əlamətlər çoxdur. Əsas əlamətlərdən biri budur ki, göbələklər heterotrofdurlar, yəni onlarda xlorofil olmadığı üçün yaşıl bitkilər kimi üzvi maddə hazırlaya bilmirlər. Ona görə də onlar üzvi maddələri yaşadıqları mühitdən parazit və ya saprofit yolla alırlar.

Aparılan tədqiqatların nəticələri göstərir ki, Naxçıvan diyarında göbələklərin yayılma arealı və istifadəsi XI əsrə təsadüf edir.

Göbələklə bağlı muxtar respublika ərazisində müşahidələr apardıq. Aydın oldu ki, burada geniş yayılan onlarla dadlı və qida əhəmiyyətli göbələk növləri vardır. Onların əksəriyyəti yerli əhali tərəfindən istifadə olunmaqdadır.

Maraqlı bir faktı qeyd edək ki, göbələklər bitki və heyvan qalıqlarını parçalayıb minerallaşdırmaqla təbiətdə mühüm sanitar vəzifə yerinə yetirirlər.

Hörmətli oxucular, bu yazıda məqsədimiz göbələyin muxtar respublikamızda geniş yayılan yeməli, zəhərli növləri və onların bioloji xüsusiyyətləri ilə sizi yaxından tanış etməkdir.

Göbələklərin yeməli və zəhərli növləri əsrlər boyu nəsillərin təcrübəsindən, sınağından çıxmaqla müəyyən olunmuşdur. Göbələyin muxtar respublika ərazisində bir sıra yeməli növləri mövcuddur.

### Göbələyin zəhərli növlərinin xüsusi əlaməti varmı?

Zəhərli növlərin yeməlilərə nisbətən çox-çox az olmasına baxmayaraq, onlara hər yerdə rast gəlmək olar. Bu səbəbdən bəzən təcrübəsiz göbələk həvəskarlarının qazanında zəhərlilər də bişirilir.

Müxtəlif yerlərdə bəzən belə fikir yürüdülür ki, guya zəhərli növləri yeməlilərdən ayırmağın xüsusi üsulları vardır. Məsələn, göbələk kəsildikdə rəngi göyərirsə, guya, bu növ mütləq zəhərlidir. Belə bir fərziyyə də yürüdülür ki, zəhərli göbələklər yeməli növlərdən fərqli olaraq qurd salmır, südü çürüdür, həm də belə göbələklərlə bir qazanda bişən baş soğan və sarımsağın, habelə bu qazana salınmış gümüş qaşığın rəngi qaralır və sair. Deyilənlərin təhlükəli cəhəti budur ki, onlara əməl edilməsi ağır zəhərlənmələrin baş verməsi ilə nəticələnə bilər. Göbələk olan qazanda gümüş qaşıqların qaralması burada kükürdlü amin turşularının təsiri nəticəsində olur. Belə turşular həm zəhərli, həm də yeməli göbələklərdə ola bilər.



Buna görə ən etibarlı üsul tanış olmayan göbələkləri yığmamaqdır.

### Göbələklə zəhərlənmə

İnsan orqanizminə təsir xarakterinə görə zəhərli göbələkləri 3 qrupa bölürlər.

*I qrupa, əsasən, mədə-bağırsaq pozğunluğu əmələ gətirən göbələklər daxil edilir. Respublikamızda rast gəlinən belə növlərə sarıdərili şampiyon, yalançı kötükçələr, itipulcuqlu lepiota, amanita və alakövrəklərin bəziləri aiddir. Belə göbələklər yeyildikdən 1-2 saat sonra zəhərlənmə əlamətləri özünü göstərir. Bu zaman ürəkbulanması, qarın nahiyəsində ağrılar, tərləmə, qusma, ishal, bəzən ürək getməsi halları baş verir.*

*II qrupa yeyildikdə əsəb sisteminə təsir edən göbələklər daxildir. Buraya qırmızı və panterli amanita, ağımtıl və ağarmış klitosibe, teltelli və psilosibe cinslərinin bir neçə növü daxildir. Bu növlərdə olan zəhərli maddələr qan təzyiqini oynaq vəziyyətə gətirir, halsızlıq və qusma halları baş verir.*

*III qrupa zəhəri bilavasitə qana təsir edən göbələklər daxildir, bu cür növlərlə zəhərlənmə çox vaxt ölümlə nəticələnir. Dünyada çox geniş yayılmış solğun amanita və bu cinsin daha iki növü belə göbələklərdəndir.*

Ekspedisiyalar zamanı aydınlaşdırdıq ki, Naxçıvan Muxtar Respublikasının inzibati ərazisində zəhərli göbələklərə çox az təsadüf olunur. Bəlkə də, buna görədir ki, ölkə bazarında Naxçıvan göbələyinin özünəməxsus yeri vardır.

### Bunları bilmək faydalıdır

Yadda saxlamaq lazımdır ki, bütün, hətta ilk baxışda yüngül görünən göbələk zəhərlənmələrində mütləq həkim çağırılmalıdır. Göbələk zəhəri çox vaxt qan dövranında və ürək fəaliyyətində həyat üçün təhlükəli olan ciddi pozğunluqlar əmələ gətirə bildiyindən xəstə özünü heç bir gərginliyə salmamalı, hətta xəstəxanaya belə, özü getməməli, nəqliyyatla aparılmalıdır. Həkim gələnə qədər xəstəyə mütləq ilk yardım göstərilməlidir. Zəhərlənmiş adamın sağlamlığı, hətta həyatı çox vaxt vaxtında edilən ilk tibbi yardımdan asılı olur. Ən əvvəl mədə və bağırsağın zəhərli maddələrdən təmizlənməsi üçün bütün vasitələrdən istifadə edilməlidir. Mədəni yumaqdan ötrü xəstəyə 4-5 stəkan qaynadılmış ılıq su, sodalı su (1 stəkana 1 çay qaşığı qədər çay sodası tökülür), yaxud kalium permanqanatın zəif, azca çəhrayılaşan məhlulu içirdilməlidir.

Zəhərlənmə zamanı xəstə qəti olaraq spirtli içki içməməlidir; damarları genişləndirən spirtli içki göbələk zəhərinin sorulmasını daha da tezləşdirir. Xəstənin vəziyyətini yüngülləşdirməkdən ötrü qarın nahiyəsinə, ayaqlarına isti əşyalar (kərpic, qaynar su tökülmüş butulka və sair) qoymaq lazımdır. Bütün bunlara baxmayaraq, zəhərlənən insan mütləq xəstəxanada həkim nəzarətində müalicə olunmalıdır.

*Göbələklərdən düzgün istifadə etmək üçün onları yaxşı tanımaq önəmlidir.*

**Əsgər HƏSƏNOV**
*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı*

# Voleybol turnirinə start verildi

Dünən İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş voleybol üzrə Naxçıvan Muxtar Respublika turnirinə start verilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının birgə təşkil etdiyi turnir 3 gün davam edəcək.

Yarışı Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi. Daha sonra söz Voleybol Federasiyasının sədr müavini Aydın Mirzəyevə verildi. Federasiya rəsmisi gənclərin bu idmana olan marağından danışdı, muxtar respublikada idmana və idmançılara göstərilən diqqət və qayğıdan bəhs etdi.

Turnirin reqlamentinə əsasən, 8 komanda 2 yarımqrupda mübarizə aparır. Dairəvi sistem üzrə keçirilən yarışda Şərur, Babək, Sədərək, Ordubad, Culfa, Şahbuz, Kəngərli rayonlarını, həmçinin Naxçıvan şəhərini eyniadlı komandalar təmsil edir. Qrup mərhələsində ilk 2 pilləni tutan komandalar yarımfinala yüksələcəklər. Turnirin final qarşılaşması mayın 14-də keçiriləcək.

**Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Naxçıvan şəhəri, "İstiqlal" küçəsi, bina 79, mənzil 32-də yaşamış Xudatova Dilguşə İbad qızına məxsus evin 7089 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhərinin Qaraxanbəyli kənd sakini Adıgözəlova Tükəzban Əsəd qızının adına olan JN-1589[A] inventar nömrəli, 10304005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

### Allah rəhmət eləsin

Naxçıvan Tibb Kollecinin direktoru İlhamə Mustafayeva və kollecin kollektivi iş yoldaşları Zəminə İsmayılovaya, bibisi
**XANIMCANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Tibb Kollecinin direktoru İlhamə Mustafayeva və kollecin kollektivi iş yoldaşları Qasım və Esmira Əliyevlərə, əzizləri
**LƏZİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları
**FİRUDİN MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkimlərindən Əli Ələsgərov, Xaspolad Tutayuk, Arif Rzayev, Qoçəli Dünyamalıyev, Elxan Abdullayev Bəxtiyar Məmmədova, atası
**FİRUDİN MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Kamal Qasımov Bəxtiyar Məmmədova, atası
**FİRUDİN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Kimya kafedrasının müdiri Tofiq Əliyev və kafedranın əməkdaşları professor
**SEVİNDİK VƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkimlərindən Elxan Abdullayev, Zakir Abbaslı, Xaspolad Tutayuk, Elman İsmayılov və Rəşad Allahverdiyev iş yoldaşları Qasım və Esmira Əliyevlərə, əzizləri
**LƏZİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkimlərindən Arif Rzayev, Adil Məmmədov, Yaşar Rzayev, Vəliyulla Hüseynov, Sevinc Orucova və Zemfira Bağırova iş yoldaşları Qasım və Esmira Əliyevlərə, əzizləri
**LƏZİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Rus dili kafedrasının müdiri Hüseyn Adıgözəlov və kafedranın əməkdaşları iş yoldaşları Zemfira Əhmədovaya, əzizi
**ARİFİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkimlərindən Sabir Novruzov, Etibar Bababəyli, Tərlan Allahverdiyeva, Fərman Novruzov və Aynur Abbasova iş yoldaşları Qasım və Esmira Əliyevlərə, əzizləri
**LƏZİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının Cərrahiyyə şöbəsinin həkimlərindən Məhərrəm Tarverdiyev, Elxan Abdullayev, Etibar Bababəyli, Aynur Abbasova, Rahilə Həsənova və Vüsalə Məmmədzadə iş yoldaşları Qasım və Esmira Əliyevlərə, əzizləri
**LƏZİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 424